

# QIZIL PAYIZ LÖVHƏLƏRİ VƏ QARABAĞ...

(*esse - etüd*)

**Eldar Şahgəldiyev**
*fəlsəfə doktoru, Xəzər Universitetinin dosenti*

*Xəzər Universitetinin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə doktoru, dosent Eldar Şahgəldiyevin 2018-ci il yanvarın 17-də aznews.az saytında dərc olunmuş "Qızıl payız lövhələri və Qarabağ..." adlı esse - etüdünü oxucularımıza təqdim edirik.*

Əsrlərlə ilin fəsillərini müxtəlif ölçü-biçidə izah etməyə çalışmışıq, onlarla bağlı adət-ənənələrin geniş çeşidini yaratmışıq və nəsildən-nəslə ötürmüşük.

Fəsillərə olan münasibət istər ailədə, istər cəmiyyətdə, istərsə də kiçik bir toplumda, məsələn, elə Qarabağda xüsusi mahiyyət kəsb etmişdir; onun müxtəlif dövrlərinin insan həyatı ilə bağlı olması, insanlarda bəzən kədər, bəzən isə sevinc dolu hisslərlə xatırlanması, sanki, onlara bir bəşərilik mahiyyəti aşılamışdır. Fəsillərin içərisində payıza münasibət həmişə oz rəngarəngliyi ilə seçilmiş, yazarların qələmlərində xeyli vəsf olunmuşdur.

Payız lacivərd yağışların başlamasını gözləyir ki, gəlsin... gəlsin ki, yarpaqlar da öz rənglərini dəyişərək tökülsün, payız xəzanı yaratsın. Belə başlayır qızıl payız. Oyuq zəfəran səmasına qarşı dayanan tünd təpələr, onun tünd qırmızı bayraqcıqları ilə örtülür və insanların ürəklərini ehtizaza gətirən bir təbiət yaranır - qızıl payızda. Biz bu fəsli "qızıl" adlandırırıq. Payız etüdləri cövlan edir xəyallarda: qürubun günbəzi uzun müddət vadilər yalanını sakitləşdirir, yalnız küləklərin əsdiyi alaqaralanlığı yırğalayaraq, yarpaqsız ağacların arfaları arasında özünə xəfif iz açır payız. Fantastik röyalar və qəmgin melodiyalar doğursa da, payızın soyuq və bənövşəyi hava düzümünə, cənub-qərb parıltılarında böyük qızıl ulduzun bərq vurmasına yenə də məftundur insanlıq.

Bu füsunkarlığı Azərbaycan bayrağının dalğalarında daha fəxarətlə hiss edirik; külək və dalğalanan möhtəşəm Azərbaycan bayrağı, sanki, bizi təbiətin yaratdığı şıltaqlıqlara qarşı daha da mətin olmağa hazırlayır. Yellənən budaqları və sehrli səsləri yanımıza çağırmaq, öz səsimizə qarışdırmaq istəyirik... Qarabağın payızını xatırlayırıq. Hələ də kölgələrdə dolaşarıq, sanki, sonradan güc toplayaraq heyranlıqla Qarabağ çöllərini qucacağıq deyə. Payız küləyinin melodiyaları Qarabağ melodiyalarına qarışıb sanki... birce diqqət kəsilmək gərəkdir. Gecələrin ələkeçməz gözəlliyini içmək və ürəyimiz doyana kimi bu füsunkarlıqla "dolub-boşalmaq" istəyirik. Budur - qızıl payızın yaratdığı möcüzə və ehtizazlar, Qarabağ payızının "musiqi silsiləsi". Külək, yağış, dolu, qar, göy gurultusu, şimşək... onların hər birində Qarabağ hiss olunur... bəlkə onları elə Allah oradan bizlər üçün göndərib?! Göndərib ki, Qarabağın payızını xatırlayaq, payız lövhələri isə bir-birini əvəz edərək, həyəcanlarla dolu bir həyat yaşatsın bizlərə...

Mövsümlər, bitkilərdə mürgünün və heyvanlarda fəaliyyətsizliyin dövrələrinə tez-tez səbəb olan günəş işığı miqdarında, dəyişikliklər gətirir bu fəsildə. Belə də payız olar heç?! Təkcə payız var, Qarabağ payızı isə hələ də yanımızda deyil... onu doyunca yaşaya bilmirik... bəs bu adəti niyə yaşatmırıq?!

Müdriklik elmindən bilirik bunu - Qarabağımızın "QIZIL PAYIZI"na qovuşacağımız gün indi çox da uzaqda deyil; çünki hər keçən Aprel günləri bizi bu payıza daha da yaxınlaşdırır.

İnşallah, şəhidlərimizin ruhu naminə Qarabağın payızını qucmaq arzularıyla!

*http://www.aznews.az/news/cemiyyet/162563.html*